YENİ TƏFƏKKÜR Yüksəlişə doğru yol!

21 avqust / 2020



# SƏBRLİ OL, ADİLƏ, ŞƏHİDLƏR HEÇ VAXT UNUDULMUR!

***30 ildir sinəmizdə qövr edən Qarabağ yarası sağalmır ki sağalmır. Zaman-zaman yaramıza duz basan erməni faşistləri utanmazcasına, həyassızcasına hələ də bar-bar bağırırlar ki, güya Qarabağ ermənilərindir. Hər dəfə də ağızlarının payı verilir. Elə götürək Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Paşinyanın debatlarını. Prezidentimizin tutarlı, tarixi həqiqətləri əks etdirən cavabları Paşinyanı dünya qarşısında gülünc vəziyyətə düşürüb.***

Hər dəfə çaşbaş qalan Paşinyan özü etiraf edib ki, Qarabağ Azərbaycanındır. Lakin yenə də erməni erməni olaraq qalır.

Tovuz istiqamətində ermənilərin hücumunun qarşısını alarkən Milli Ordumuzun general-mayoru Polad Həşimov başda olmaqla 12 əsgər və zabitimiz Şəhidlik zirvəsinə ucaldılar. On iki ailənin çırağı söndü. Neçə körpə atasız, neçə gəlin ərsiz, neçə nişanlı qız sevgilisiz, neçə ana oğulsuz qaldı. Yenə dedik: Vətən sağ olsun! İnanırıq ki, atasının tabutu önündə bacısının göz yaşını silən qardaşlarımız, oğullarımız bu qisası erməni dığalarından alacaq, qələbə sevincini bizlərə yaşadacaqlar.

Lakin, həyatda elə anlar olur ki, yoxluğuna inanmadığı əzizinin başdaşına sarılaraq, onunla dərdləşmək istəyir insan. Şəhid Valeh Şahmirovun həyat yoldaşı, iki ciyər parəsinin anası Adilə kimi...

Valeh Şahmirov 1960-cı il iyul ayının 12-də (qeyd edək ki, bu il onun 60 yaşı tamam olub. 60 yaşın mübarək, Şəhid qardaşım!) rayonumuzun Lələli kəndində Yusifəli kişinin ailəsində dünyaya gəlib. Lələli kənd məktəbində 8 illik təhsil alan Valeh həm orta təhsilini tamamlamaq, həm də peşə öyrənmək məqsədi ilə Bakıya üz tutur. Və Bakıdakı 55 nömrəli texniki peşə məktəbində təhsil alır. O, burada soyuducu qurğuların maşinisti peşəsinə yiyələnir. 1978-ci ildə məktəbi qutarıb, təyinatla Bakı aqreqatlar zavodunda işləyir. Bir illik əmək fəaliyyətindən sonra keçmiş sovet ordusu sıralarında hərbi xidmətə çağrılır. 1981-ci ildə ordudan təxris edilir və yenidən zavoda geri qayıdır. Bir ildən sonra Şimal buzlu Okeanında məhşur neftçi Fərman Salmanovun briqadasında çalışır. İki il orada işləyir. 1985-ci ildə Vətənə qayıdır, onun yolunu intizarla gözləyən nişanlısı Adilə ilə evlənir.

Valeh 1987-ci ildə ailə vəziyyəti ilə bağlı Ləlıliyə, doğma kəndinə qayıdır və yeni təşkil edilmiş "Lələli" kolxozunda yanacaq və ehtiyat hissələr anbarında anbardar işləyir.

Qarabağ müharibəsi başlanan gündən cəbhəyə can atan, iki uşaq atası Valeh 1993-cü ilin oktyabr ayında Milli Orduda xidmətə çağrılır. O üç ay Bakı yaxınlığında təlim-məşq keçir. Valehin döyüş yolu 1994-cü ilin yanvarından başlanır.

Yanvarın 1-də Valeh artıq Ağdərə-Tərtər bölgəsində idi. Çətin döyüşlər gedirdi. Valeh özündən yaşca kiçik olan döyüşçülərə nümunə göstərirdi. Döyüşün ən çətin anında irəli çıxar, başqalarını da arxasınca apardı. Lakin onun döyüş yolu cəmi 15 günlük olur. Qızğın döyüşlərin birində o, aldığı güllə yarasından 33 yaşında Şəhidlik zirvəsinə ucalır.

Özündən sonra iki balasını Vətənə əmanət qoyan Şəhid Valeh Şahmirovun məzarı Bakıdakı ikinci Şəhidlər Xiyabanındadır.

...Valeh haqqında oxucularımıza söz açmaq, onu gənc nəslə tanıtmaq, sevdirmək, hər bir şəhidimizə ehtiram məqsədi ilə igid döyüşçümüzün həyat yoldaşına üz tutdum. Öyrəndim ki, Şəhid əsgərimizin iki övladını boya-başa çatdırmaq üçün Adilə çox çətinliklərlə üzləşib. Artıq oğlu Nəsib, qızı Əsmər gənclik çağlarındadırlar. Qızı Əsməri gəlin köçürüb Adilə. Oğlu Nəsiblə əl-ələ verib kənddə Valehdən qalan kiçik bir evdə yaşayırlar. Həyatın hər üzünü görən, gənc yaşlarından iki körpəsini bağrına basıb, sevgisinin əmanəti kimi saxlayan Adilənin dedikləri:

- Valehin Şəhid xəbərini alandan qaynatam, xalası oğlu Səbri, qardaşım İlham onun məzarını axtarmağa, nəşini doğmalarının yanına gətirməyə çalışdılar. Çox yerə soraq saldılar. Xəbər aldıq ki, onu Bakıda dəfn ediblər. Məzarı İkinci Şəhidlər xiyabanında idi. O gündən Valehin məzarını ziyarət etmək üçün Şəhidlər xiyabanına üz tuturuq. Sonuncu dəfə qızımın toyuna bir neçə gün qalanda oğlumla, qızımla birgə onun ziyarətinə getdik. Yəqin ruhuna ayan olub: Qızı gəlin köçür. Danışdıqca Adilə göz yaşlarına hakim ola bilmirdi...

Səbrli ol, Adilə. Ordumuz Valeh kimi şəhidlərimizin qanını yerdə qoymayacaq, torpaqlarımızı murdar ermənilərdən təmizləyəcək. Tezliklə qələbə xəbərini alacağıq. Amin!

Xavər Əfəndiyeva